# ŞƏXSLƏRİN QƏBUL EDİLMƏSİ QAYDASI

1. Ali Məhkəmədə şəxslərin qəbulu məhkəmənin sədri, kollegiya sədrləri və aidiyyəti qurum olan Vətəndaşların qəbulu, müraciətlərin qeydiyyatı və baxılması şöbənin məsul işçiləri tərəfindən həyata keçirilir.

2. Ali Məhkəmənin sədri şəxsləri həftənin bazar ertəsi günü, Cinayət işləri üzrə məhkəmə kollegiyasının sədri çərşənbə günü, Mülki işlər üzrə məhkəmə kollegiyasının sədri cümə günü, Hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasının sədri cümə axşamı günü, İqtisadı mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyasının sədri çərşənbə axşamı günü saat 15:00-dan qəbul edir.

3. Şəxslər bir qayda olaraq qəbul günü saat 09-00-dan 13-00-dək ərizə ilə məhkəmənin Vətəndaşların qəbulu, müraciətlərin qeydiyyatı və baxılması şöbəsinə müraciət edir, ərizələr araşdırılıb yoxlanıldıqdan sonra sədrin və kollegiya sədrlərinin qəbuluna yazılırlar. Qəbula yazılmaq üçün aşağıdakı sənədlərin təqdim edilməsi zəruridir:
3.1. şəxsiyyəti təsdiq edən sənəd;
3.2. şikayət ərizəsi;
3.3. məhkəmə aktlarının surəti.

4. Ali Məhkəməsinin Vətəndaşların qəbulu, müraciətlərin qeydiyyatı və baxılması şöbəsinin məsul işçiləri tərəfindən şəxslərin qəbulu həftənin I-V günləri saat 09:00-dan 18:00-dək həyata keçirilir.

5. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq hakimlər məhkəmə icraatına hazırlıq dövründə və məhkəmə icraatı zamanı işlə bağlı şəxslərin qəbulunu həyata keçirmirlər.

6. Korrupsiya və ya süründürməçiliklə bağlı ərizə və müraciətlər məhkəmənin aşağıda qeyd edilən elektron ünvanına göndərilə bilər